## AZERBAYCAN ELMLER AKADEMİYASININ PREZİDENTİ AKADEMİK FEREMEZ MAGSUDOV'UN ÇIHIŞI

Hörmetli kollokvium iştirakçıları!

Eziz gonaglar!

*İkinci Beynelhalg "Dede Gorgud" Kollokviumu* kimi mö'teber bir elmi tedbirde iştirak etmeniz münasibeti ile hamınızı salamlayır ve ürekden tebrik edirem.

Türk medeniyyetine mehsus ortag tarihi -me'nevi deyerlerimiz sırasında öndeki yerlerden birini tutan "Dede Gorgud" eposunun 1300 illik yubileyi ile bağlı silsile tedbirler cergesine dahil olan bugünkü Beynelhalg kollokvium türk etnik-medeni sisteminin Dede Gorgudla ilgili gatlarının öyrenilmesi yönünde layigli elmi işbirliyinin hayata keçirilmesi imkanlarından biridir. İyirminci yüzillik türkologiya elmi tarihine bütün başga istigametlerle yanaşı gorgudşünaslığın ayrıca bir fundamental araşdırma sahesi kimi dahil olması ile seciyyevidir. Başa çatmagda olan yüzillik gorgudşünaslig sahesindeki böyük elmi tecrübe ve uğurlarının yekunlaşdırılması ve üzümüze gelen iyirmi birinci esrin bu yöndeki perspektiv istigametlerinin müeyyenleşdirilmesi bahımından, şübhesiz ki, beynelhalg migyaslı bu nüfuzlu elmi toplantının garşısında ciddi elmi problematik vezifeler durur. Bilindiyi kimi, *I Beynelhalg "Dede Gorgud" Kollokviumu* da on il önce 1988-ci ilde Bakıda keçirilmişdir. O zaman hemin mö'teber elmi tedbirin iştirakçıları yüksek seviyyeli me'ruze ve çıhışlarda Kollokviumun böyük uğur ve şöhret gazanmasına nail ola bildiler. Sonralar türkoloji aleminde bu elmi tedbirin ehemmiyeti ve tarihi deyeri barede uzun müddet danışıldı.

Bu gün *İkinci Beynelhalg Dede Gorgud Kollokviumu* daha elametdar bir şeraitde keçir. Birinci Kollokviumdan sonra Azerbaycan özünün müstegilliyine govuşmuşdur. Öten il Azerbaycan Respublikasının prezidenti, zemanemizin böyük siyasi önderi Heyder Eliyev cenabları Dede Gorgud eposunun 1300 illik yubileyinin keçirilmesi ile bağlı serencam imzalamış ve bundan sonra irimigyaslı silsile tedbirler keçirilmeye başlanmışdır. Öten il bu zamanlar *VI Beynelhalg Eposşünaslıg Konfransı* da Dede Gorguda hesr olunmuş ve sizlerin çohlarının gatıldığı hemin möteber elmi toplantı da Bakıda, Elmler Akademiyasında keçirilmişdir.

Türk halglarının ortag keçmişinden başlayıb ortag geleceyine geden me'nevi birliyinin yaranması ve möhkemlenmesinde Dede Gorgudla bağlı me'nevi-medeni deyerlerin öyrenilmesi ve halglarımıza menimsedilmesi çoh iş göre biler. Ümidvaram ki, açılışına toplaşdığımız *İkinci Beynelhalg Dede Gorgud Kollokviumu* bu problemin helli istigametinde yadda galan tarihi addımlar atacagdır.

Memnunlug hissi ile geyd edirem ki, bu böyük elmi tedbirde yahın Şerg ölkelerinin çoh saylı nüfuzlu alimleri iştirak edirler. İcaze verin, sizlerin hamınızı bizim Elmler Akademiyasında bir daha salamlayım ve *İkinci Beynelhalg Dede Gorgud Kollokviumu*na öz necib elmi ve tarihi missiyasını yerine yetirmekde uğurlar arzulayım.